# Naxçıvanda hərbi-vətənpərvərlik mövzusunda tədbir keçirilib

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Babək Rayon İcra Hakimiyyətində "Hərbi-vətənpərvərlik: Vətəndaşlıq borcumuz, konstitusion vəzifələrimiz və məsuliyyətimiz" mövzusunda tədbir keçirilib.**

"Şərq qapısı" xəbər verir ki, tədbirdə Babək Rayon İcra Hakimiyyəti başçısının müavini  Səbinə Abbasova giriş sözü ilə çıxış edərək mövzunun əhəmiyyətindən danışıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov çıxış edərək hər bir insanın vətəndaşı olduğu ölkə qarşısında müəyyən vəzifə və mənəvi məsuliyyət daşıdığını, bu isə vətəndaşlıq borcu və ya vətəndaşların konstitusion vəzifələri olduğunu, cəmiyyətdə hər bir şəxsin davranışı və fəaliyyəti isə onun əməllərində ifadə olunur. Elə əməllər ki, bunlar nə cəmiyyətə, nə də şəxsiyyətin mənafeyinə zərər vurmasın. Yəni hüquqauyğun davranış hesab edilsin.



Hüquqauyğun davranış isə dövlətin hüquq normalarında nəzərdə tutulan ictimai və şəxsi mənafelərin ödənilməsinə yönəlmiş sosial-faydalı hərəkət olduğunu bildirmişdir. Sonra isə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsinin əməkdaşı, polkovnik-leytenant Vüsal Əliyev, Naxçıvan Hərbi Kollecinin əməkdaşı, polkovnik-leytenant Hikmət Hacıyev, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşı İsgəndər İsgəndərli və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Elxan Babayev mövzu ilə bağlı çıxış ediblər.

Tədbir zamanı iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

Azərbaycan. - 2026.- 31 yanvar (№19).- S.11.